# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



Avgust 2024 il 2 say 20

## BU SAYIMIZDA


Mahirə Nağıqızı / Məni Qınama / 3

Arzu Nehrəmli / Anamın Xoşuna Gələn Günlərdə / 4

Dilarə Adilgil / Bağda / 5

Nazile Gültac / Yoktur / 9

Mətanət Hüseynxanqızı / Nəğmələşər Bu Dünya / 10

Beyhan Gözükara / Anılarım / 11

Yasemin Kapusuz / Yağmurdan Önce / 12

Mina Rəşid / Güneş Yavrum / 13

İnci Okumuş / Kalem Yarası 14

Lütviyyə Əsgərzadə / Mehmet Ömer Kazancı Şiirinde Kerkük / 16

Həvva Nazim / Gördüm / 20

Samirə Sahib / Yaz Gətirdin / 21

Təranə Arifqızı / Ne Yazım / 22

Əzizə Ağahüseynqızı / Payızın Yanında Gözləmək Olmur / 24



TÜRKAY

aylıq ədəbiyyat dərgisi

**Baş Redaktor** Lütviyyə Əsgərzadə

**Məsul Katib** Meryem Küçük

**Üz Qabıqı Şekli**

**E mail** dergiturkay@gmail.com

**İyul 2024 il 2 say 20**

## Mahirə Nağıqızı

# Məni Qınama

Qayada xınasan, gül üstə şehsən,
Gözlərim doymadı baxmaqdan sənə.
Nərgiz gülü kimi nə müştəbehsən,
Yüz yol harayladım, səs ver, dinsənə.

Gecələr ulduzsan bilmədimmi mən,
Bildim, gecələri səninlə aşdıq.
Sübhə qollarımdan tutub çəkən sən,
Nələr istəyirdik onu danışdıq.

İçimdən gələni deyə bilmədim,
Sözdən kəsərlidi, ülgücdən iti.
Neyniyim, eşidib haya gəlmədin,
Beləcə bu eşqi yaşa xəlvəti.

Bilmədim hissimi nə cür söyləyim,
Sevgimi, istəkmi, nə cürdü adı…
Çevrilib özün bax doğmalarına,
Gör hansı mənimtək sənə doğmadır?

Məni heç kim ilə yanaşı tutma,
O təhər tutmağa necə qıyarsan…
Kim səni eləcə, olduğun kimi
Görüb sevə bilər nə cürə varsan…

Adınnan yol gedib hara gəlmədim,
Üzünü görəndə baxdım o yana.
Neyniyim, sözümü deyə bilmədim,
Qınama, ay ömrüm, məni qınama.

Qayada xınasan, gül üstə şehsən,
Gözlərim doymadı baxmaqdan sənə.
Nərgiz gülü kimi nə müştəbehsən,
Yüz yol harayladım, səs ver, dinsənə.

Arzu Nehrəmli

## Anamın Xoşuna Gələn Günlərdə

Anamın xoşuna gələn günlərdə
Günlərin sultanı, padişahıydım,
Taleyi fidandım, bəxti ağıydım,
Bədnəzər görməyən təmtərağıydım,
Anamın xoşuna gələn günlərdə.
Xatirə qaynağı bir çağ olmuşdum,
Nə təhər, nə sayaq qoçaq olmuşdum,
Sarılıb dünyanı qucaqlamışdım,
Anamın xoşuna gələn günlərdə.
Çiçəyə bürünmüş yaşıl çəməndim,
Dağlara çəkilmiş dumandım, çəndim,
Mən onda özümdüm, mən onda məndim,
Anamın xoşuna gələn günlərdə.
Bir ömür ümidim, pənahım qalıb,
Necə dadmışamsa, tamahım qalıb,
Nəinki dünənim, sabahım qalıb,
Anamın xoşuna gələn günlərdə.
Sığmazdı ürəyim durub qəsdimə,
Nə yerə, nə göyə, nə də köksümə,
Sancdım heykəlini bu yer üzünə,
Anamın xoşuna gələn günlərdə.

## Dilarə Adilgil

# Bağda

Yay gəlmişdi. Tətil vaxtı idi. Aylinin ata-anası məzuniyyətlərini xaricdə keçirəcəkdi. Onu isə bağa – nənəsinin yanına göndərirdilər. Amma qızın heç könlü yox idi. Bağda internetsiz nə edəcəkdi? Seçimi də yox kimi görünürdü. Ancaq sakit təbiətli və anlayışlı qız olduğundan etiraz etmirdi. Qızmar bir iyul günü valideynləri onu nənəsinə təhvil verib səyahətə yollandılar. Aylin 7-ci sinfə keçirdi. Məktəbdə müvəffəqiyyəti normal idi. Nə güclü mütaliəsi var idi, nə ciddi bir hobbisi. Bütün maraq və məşğuliyyətini internet zəbt etmişdi. İndi isə 1 ay bunlardan məhrum olacaqdı. Nə edəcəyi, vaxtını necə keçirəcəyi barədə də heç bir fikri yox idi. Özünü yaxşıca darıxmağa hazırlamışdı. Yeganə təskinliyi nənəsi idi. Onu hədsiz çox sevirdi, həm də nənə-bala möhkəm dost idilər. Aylinin adı gələndə Sona xanım üçün axan sular dayanırdı. Bir vay-fay da olsaydı...

İndi sizə kimdən deyək, kimdən danışaq, Aylinin nənəsindən... Nənə deyib keçməyin... Elə bilirsiz söhbət qoca qarıdan gedir? Ya gözünüzün qabağına bütün günü kəfgir əlindən düşməyən, uzun axşamları corab toxumaqla keçirən, ya bir serialdan o birinə adlayan başı çalmalı klassik nənə gəlir? Yox, yox, yenə də yox! Nənə –nə nənə! Aylinin nənəsi rəssam idi. Özü də cavan, yaraşıqlı, enerjili, ciddi olduğu qədər də, yumorlu qadın idi. Sona xanım “kassadan aralanmadan” Aylinə “kuralları” başa saldı:

Demək, səninlə “xanıməfəndi razılaşması” imzalayırıq. Mənə “darıxıram”

demirsən. Darıxmaq yasaq! Özünü məşğul etməyi bacar, darıxmamağın rəhnidir. Gələcəkdə çox gərəyin olacaq. İnternet özüm çəkdirmirəm. Mən ona zibillikdə salınmış şəhər deyirəm. Heç olmasa burada sosiumdan uzaq olaq. Meqabaytımız olacaq. Özünlə dost olmağı öyrənəcəksən. Tökdüyünü yığırsan... Mən də öz tərəfimdən istirahətimizi planlayacağam. Gerisi “ssenari” üzrə. Gedər?

– Hə, nənə.

– Onda haydı... Mən dönürəm kətanıma. Sifariş götürmüşəm. Deyir, əgər yayı özünə haram etmək istəyirsənsə, iyunda ya aşiq ol, ya da yeni işə başla... Sən isə gəz, dolan, ətrafı araşdır. Axşama mətbəxdə görüşürük...

Sona xanım atlas xalatının ətəyini yellədə-yellədə iş otağına getdi. Tək qalan Aylin isə birdən “Semi” deyib hələ açmadığı bağlamalarına doğru qaçdı və balaca iti boksdan çıxarıb qucağına aldı. “Bağışla, dostum, səni unutdum” deyib, kiçicik heyvanı sinəsinə sıxdı. Bu cəmi 2 kq çəkisi olan Yorkşir teryeri idi. Aylin onun üçün oxuyurdu: “Çox sərfəli bir razmer – bu yorkşirskiy teryer”. Gözləri sanki iki qara düymə idi. Aylini bu miniatür və dekorativ ev iti hələ Şerlok Holms haqqında hekayələri oxuyarkən cəlb etmişdi. Qız ona çox bağlı idi. İt yeməyindən başqa heyvana öz payından pay ayırardı. Yumurta, kotlet, banan... Sevgi nədir? Özündən kəsib sevdiyinə vermək! Semuel çox ağıllı, müstəqil, sədaqətli it idi, həm də çox mehriban idi. Onunla yarım saat vaxt keçirən heç vaxt unutmazdı. Aylingilin liseyində hər il xeyriyyə aksiyası keçirilirdi. Şagirdlər yarmarka təşkil edir, əl işləri, kitab, özləri hazırladıqları sandviçlər, buterlər, çay-kofe satırdılar. Qazandıqlarını da ehtiyacı olan təşkilata keçirirdilər, məsələn, bu il dəprəmzədələrə. Aylin bu dəfə Semini də cəlb etmişdi. “Semi ilə şəkil çəkdirmək 1 manata!” Onu bir gözəlcə hazırlamış, çimizdirib-daramış, bəzəyib-düzəmişdi. Əyninə jilet, başına bandana... O qədər həvəslisi, maraqlısı çıxdı ki... Növbə düzülmüşdü. Amma indi heç Semi də Aylini təklikdən, darıxmaqdan xilas edə biləcək kimi görünmürdü.

Yayda bağa köçmək əsl Bakı fenomeni idi. Nənəgilin bağı nə müasir qlamur bağlardan idi, nə köhnədənqalma üstü tol evlərdən. Bunların arasında. Vaxtı ilə bu ərazidə oriyentir kimi göstərilirdi. Sona xanım zarafat edirdi ki, indi müflisləşmiş mülkədar evlərinə oxşayır. Əslində isə bağını da, evini də çox sevirdi və burada hər hansı bir yeni tikintinin qəti əleyhinə idi. Yəni... bağ elə belə olar... Saymazyana...

Aylin axşama qədər bağda gəzdi, kəpənək qovdu, quşlara baxdı, tut yedi, tısbağa tutdu.

Vaxtın necə keçdiyini bilmədi. “Yəqin birinci gündür, ona görə darıxmadım”, – deyə düşündü. Axşam nənə ilə birlikdə əvvəl şam yeməyi hazırladılar, sonra şam etdilər. Nənə demək olar bağda yaşayırdı. Yolu da rahat olduğundan Universitetdə dərsi olan günlər şəhərə gələr, axşam da bağa qayıdardı. Burada yaşamaq və yaradıcılıqla məşğul olmaq üçün hər cür şəraiti var idi. Rəsm çəkməkdən yorulanda özünü verirdi təbiətə. Gülləri ilə məşğul olurdu. Rəngbərəng qərənfillər becərirdi. Təbii yolla. Qönçələri xırda olsa da, çox ətirli idi. Göy-göyərti də əkirdi, nanə, ağ reyhan. Yarpızlı çayı çox sevdiyindən ən çox onu yetişdirirdi. Tağlarda rəng verib rəng alan şamamalar da görünürdü. Yeyilməli olmasa da, ətri gəlsin deyə Sona xanım onu dərib evin müxtəlif yerlərinə qoyurdu. Hətta çantasına da...

Bağda ikinci günün səhəri açılırdı. Aylin həyətə düşəndə nənənin dəniz tərəfdən gəldiyini görüb qabağına qaçdı. Əynində uzun sarafan, başında şlyapa “Fedora“. Qolltuğunda da etüdnik. – Etüd çəkməyə getmişdim. Bilirsən də, mən dənizin dərdindən ölürəm. Sübh tezdən xüsusilə. Əslində dənizə hərə bir cür vurğun. Kimi sahilində qaça-qaça sevir, kimi ləpədöyəndə namaz qılarkən. Kimi də mənim kimi etüd düşünərək... – Nənə, mən səni sevirəm!

Doğrudan? Necə?

Aylin çox düşünmədən əyilib yerdən yabanı bitən sarı çiçəklərdən birini

qopardıb nənəsinə təqdim elədi. Sona xanım dodaqlarını büzdü: – Pis deyil, amma O da deyil. Nə üçünsə ilhamlandırmadı... Aylin: “Aha, bildim”– deyib, bağçaya qaçdı və əlində uzun saplaqlı al qırmızı qızılgüllə qayıtdı.

Hə, bu başqa məsələ! Yəni, “mən səni dünyalar qədər sevirəm!” Çiçəklər

ruhun tərcümanıdır.

Sona xanım öz ampluasında idi...

Bu gün də necə keçdi, necə bitdi, Aylin bilmədi... Qonşu uşaqlara qoşulub kəndə getdi, elektriçka yolundan “beşdaş” oynamaq üçün rəngli daşlar yığdı, hovuzda çimdi... Onun demək olar yaxın rəfiqəsi, dostu olmamışdı, hamısını telefon əvəz edirdi. İndi isə həyatı dəyişmişdi və bütün bunlar – yaşadıqları ona qəribə gəldiyi qədər də ilginc görünürdü. Nənə-bala tələsmədən, uzun-uzadı səhər yeməyi yeyirdilər, söhbət edə-edə, deyə-gülə, ünsiyyətdən zövq alaraq... Sona xanım teatral əda ilə elan edirdi: “Budem dolqo-dolqoo zavtrakat!” Aylin də ağzı dolu “yşı” deyirdi. (Yəni, yaxşı) Anlaşırdılar. 11-12 arası nənənin bostan saatı idi. Deyirdi bura mənim həm solyarimdir, həm fitnesim, həm də trenajor zalım. Bir dəfə Aylin kirpi tutmuşdu. Üstünə dəsmal atandan sonra əlinə götürə bilmişdi. Eləcə dəsmalın üstündən sığallayırdı. Sevmək – həm də təmasdır. Toxunmasan necə sevə bilərsən? Nənə də zarafat elədi ki, muğayat ol a, birdən Afrikadan, Hindistandan qaçmış daraqlı oxatan kirpi olar. Qaçmasın deyə, qumun üstünə qoyub üstünə vanna çevirmişdi. Bir azdan baxanda gördü yoxdu. Qumu oyub qaçmışdı.

Üçüncü, dördüncü... gün də bol emosiyalı, əyləncəli keçdi. Aylin darıxmağa vaxt tapmırdı. Darıxmaq istəyirdi... Amma darıxa bilmirdi. Bağın alqoritmi qoymurdu. Boynuna da almaq istəmirdi ki, darıxmır. Axı, bu bir neçə gün əvvəl mümkünsüz görünürdü. Nənəsi onu qulluğa da göndərirdi, məsələn, qəsəbədəki marketə. Bir dəfə sıradan olmayan hadisə də baş vermişdi. Avtobusu gözləyəndə aldıqlarını səkinin kənarına qoymuşdu. Bir də baxdı ki, sahibsiz itlərdən biri onun bazarlığının içindən səliqə ilə bir paketi götürüb getdi. Nə dağıtdı, nə bir şey. Əhvalatı nənəsinə danışanda Sona xanım “ac da olsa, gözütox it imiş. Savab qazanmısan” dedi. Axşamlar da bağ camaatı tək-tək, iki-bir, itləri ilə yürüşə çıxanda nənə ilə Aylin də onlara qoşulardılar. Nənənin əynində eşofman, hər ikisinin qulağında qulaqcıq stansiyaya qədər gedib-gəlirdilər. Yatmazdan qabaq da balkonda oturub ilbizlərin səsinə qulaq asa-asa xeyli söhbətləşirdilər. Nənə keçmişdən, nəvə gələcəkdən danışırdı. Hərdən qonşuluqdakı Aslan müəllim də çaya gəlirdi. Qəribə çay içməyi də var idi. Çayı dərin nəlbəkiyə töküb stəkanı da içinə qoyurdu. Aylin də düşünürdü ki, yəqin o zaman çay tez soyuyur. Aslan müəllimin gəlişi Aylini çox sevindirirdi, onun sözü-söhbətindən yorulmurdu, zarafatlarından canlanırdı. Deyirdi ki, Abşeron bağlarının ən qədimi bizim bu Novxanı bağlarıdır. Sonra gəlir Nardaran, Mərdəkan... Aslan müəllim alim idi, tarix elmləri doktoru. Nənə ona zarafatla Şirpələng müəllim deyirdi. Aslan müəllim çox gəzmişdi, çox görmüşdü. Qız əlini çənəsinə dayayıb müəllimin zövqlü

söhbətlərini dinləyirdi. O da zarafat edirdi ki, ay Sona xanım, sənin bu nəvən necə də italyanlar kimi əlini üzünə söykəyib oturur. Aylin bu iki nəfərin gecə söhbətlərini yatmazdan qabaq uşaqlara danışılan nağıllara bənzədirdi, hansıları ki, körpəlikdə elə həmin bu nənəsindən çox eşitmişdi. Amma indi “Yetim İbrahimin nağılı”nı, “Tumar pəhləvan”ı, “Koroğlu”nun qollarını daha qlobal mövzular əvəz edirdi. Aylin söhbətdən kənarda qalmasın deyə, onun yaşına uyğun peşə seçimi mövzusu da gündəmə gəlirdi. “Bax, sən böyüyəndə özünü hansı sənətdə görürsən?”— deyə qonşu maraqlandı.

Hələ bilmirəm, düşünürəm.

Sən planlarını, arzularını geniş götür. Xəyal quranda belə – geninə-boluna,

masştablı qur, Napaleonvari. Yoxsa elə bilirsən Napeleon pirojnadır? Sezar salat olan kimi... Aslan müəllim də yumorda nənədən geri qalmırdı...

– Şekspir oğlundan soruşur ki, kim olmaq istəyirsən? Cavab verir ki, Şekspir. O da deyir ki, mən Allah olmaq istəyirdim, Şekspir oldum. Dünyaya çıxdıqsa, gerisini də gətirim... Deyir, əsgərin hədəfi general olmalıdır, rahibinki papa. Xəyal etdiyin hər şey gerçəkdir. Demə ki, məsələn, filankəslər hara, mən hara? Demə ki, ora düşmək olar? Oradakılar düşübsə, sən də düşə bilərsən. Bütün sənətlər qardaşdır, hamısı bir-birinin işığında irəliləyir, qalanı emosiyadır. Belə... Böyük həyatın astanasında sənə verilən nadir fürsəti qaçırma. Özünü xərcləyəndə də, dəyərli, mənalı işə xərclə.

Beləcə, bu iki qocaman insan məktəblinin düşüncəsində, həyata baxışında öz rolunu oynayır, xatirəsinə çevrilirdi. Sağollaşanda Aslan müəllim qurtaran bu günün artıq tarix olduğunu qeyd etdi, əlini sinəsinə qoyub centlemencəsinə axşam üçün təşəkkür etdi. – Bax, gəlin bu günə yekun vuraq! Sənin üçün, qızım, bu məhtab gecə nə ilə unudulmaz oldu, necə yadında qalacaq, deyə bilərsən?

Aylin bir anlğa duruxdu... – Bilmirəm... O qədər çox şeylə ki! Məncə bu suala

illər sonra cavab verə biləcəyəm.

Məntiqli cavab. Sona xanım, bəs sizin üçün?

Sona xanım yenə zarafatından qalmadı:

Mən bu axşam 2 dəfə samovar qaynadıb, 3 dəfə çay dəmləmişəm, – onunla!

Gülüşdülər...

– Ancaq mənim üçün... Bax, bu sirli “gecə-gündüz” gülü ilə! Bura gələndə bu çiçəklər bağlı idi və heç bir qoxusu yox idi. Gözümün qabağında hamısı açıldı. Ayın işığına büründü və ətri ətrafa yayıldı. Gecə-gündüz gülü gözəlliyini də, ətrini də gecə üçün saxlayır. Gecə pastel rəngləri sevir: solğun sarı, krem, sədəfi, əsas da ki, ağ... Ağ çiçəklər sanki bəyazlıqda aya meydan oxuyur. Sabah günəşin ilk şüaları ilə gözləri yenə bağlanacaq, qaranlıq çökəndə yenə açacaq...

Aslan müəllim birdən “Gedim, yordum sizi, həm də gecdi. “Yay da keçdi. İçəriyə aldıq masayı-sandalyeyi”, – deyib şeir oxuya-oxuya qapıya yönəldi. Sona xanım sərraf idi: “Su qatılmamış şeirlərdəndir a, Aslan müəllim!”—dedi. Bəli, Necatidəndir. Sonra nənə qonağı yola salmağa çıxanda Aylin əli ilə çiçəklərə toxundu, başını qaldırıb sayrışan səmaya baxdı və ona çatdı ki, nə bu ilahi yay gecəsini unudacaq, nə də bu balkon söhbətlərini. Parıldayan çiçəkləri də heç vaxt. Bu günün kuliminasiyası kimi.

Günlər bir-birini əvəz edirdi. Bir dəfə nahara yaxın Aylin nənəsinin otağına baş çəkdi. Bu geniş, qızıllı-günəşli, xəzrinin qapıdan girib pəncərədən çıxdığı bir otaq idi. Hündür pəncərələrdəki güllü pərdələr də sanki xilas olmaq istəyirmiş kimi çırpınır, özünü bayıra atmağa yol axtarırdı. Amma fəqət... Pəncərənin qarşısını kəsən, hələ üstəlik otağa da keçmək fürsəti tapan parlaq yarpaqlı püstə ağaclarının müqavimətinə ilişib geri çəkilirdi. Bu ağacları Aylinin babası əkmişdi. Qoşa-qoşa. Demişdi ki, püstə təkliyi sevmir, məhv olur. Onu mütləq cüt əkmək lazımdır. Divarlarda ağacların işıqlı kölgələri rəqs edirdi. Məkana yaradıcı bir səliqəsizlik hakim idi: orda-burda üzü divara çevrilmiş yarımçıq işlər, molbertin yanında rəsm ləvazimatları, kiçik stolun üstündə padnosda qəhvədan, bir az aralı fincanda unudulmuş qəhvə... Pəncərə qabağındakı nimçədə bağ nemətləri – üzüm, əncir, meşmeşi... Qız keçib bir küncdə oturdu. Nənəsini izləmək xoşuna gəlirdi. Qadın öz aləminə qərq olduğundan Aylini görmürdü. Elə özü interyerdə portretə oxşayırdı. Bütünlüklə yaratdığının içində idi. Sanki bu dəqiqə tavan uçarsa, ya yanğın başlarsa, görməz, hiss etməz. Sanasan rənglər

ilə deyil, hisslərlə çəkirdi. Gözlərini də yummuşdu. Amma əlləri işləyirdi. Hannan-hana Sona xanım "yerə enəndə" divara qısılmış Aylini fərq etdi:

Burdaymışsan ki! Mən də deyirəm ki, niyə bu qızın səsi gəlmir. Məni

izləyirdin? Əslində, bu intim bir prosesdir. Yad gözlər üçün deyil. Gördüyüm

kimi yox, düşündüyüm kimi çəkirəm. Amma sənə acığım tutmur. Çünki səni sevirəm. Gedək çay içək. Yaxşı ki, gəldin... Bilirsən, baban məndən necə çay istəyirdi? Həə... Qoy deyim. Cəfər Sonadan çay istəyən sayaq:

Ay Sonası, çay gətir mənimçün,
Qələndərəm, pay gətir mənimçün,
Bağ yeridir, işlətmərəm çox qəndi
İstəyirsən, say gətir mənimçün.

Sona xanım kövrəldi. Fırçanı vazon formasında olan penala qoyub əllərini

əskiyə sildi. Şəklin üstünü örtüb önlüyünü çıxartdı. Nənə-bala qucaqlaşıb otaqdan çıxdılar.

Aylinə elə gəlirdi ki, həmişə belə yaşayıb. Qız yenə günləri sayırdı... Amma indi təəssüflə... Şəhərə qayıtmağıma bir həftə qaldı... 6 gün qaldı... Beləcə, final yaxınlaşırdı. Aylinin də ad günü. Elə nənənin də. 49 il fərqi ilə eyni gündə doğulmuşdular. Nə maraqlı, elə deyilmi? Nənənin planı möhtəşəm idi:

– Bu ad günümüzü fərqli qeyd edəcəyik, ikilikdə, sən və mən! Ona görə evdən

qaçacağıq. Bax, sən özümüzdən başqa hansı xalqın mətbəxini sevirsən? Yaxşı, gəl belə deyək, sənə nə cür yeməklər interesan gəlir?

Dəniz məhsulları...

Aha, oldu, bildim hara gedəcəyik, nənə-bala bir gözəl qeyd edərik. Necə

olsa, 12 yaş insan həyatında bir dəfə olur! 61 yaş... bəxtin gətirərsə... Həll etdik.

Nənə, sən mənim qəhrəmanımsan!

– Tələsmə... şərtim var. Sualtı aləm, onun flora və faunası haqqında məlumatın olmalıdır. Sifarişimizi sənə həvalə edirəm. Tək suşi ilə işin içindən çıxa bilməzsən. Məqsədimiz həm bilmədiklərimizi öyrənmək, öyrəndikcə vaxtını səmərəli keçirtməkdir. Sonda isə prosesə və sənin tətilinə şahanə bir şam yeməyi ilə, ağız dadımızı bir gözəlcə dəyişməklə son verəcəyik. Bax, sənə bir sualım da var, daha doğrusu test edəcəyəm. Unutma ki, nənən ali məktəb müəllimidir. Əgər paralel dünyaya səyahət etmək imkanın olsa, hansı dövrü seçərdin?

Aylin nə düşündüsə : – XIX əsri, – dedi.

– Gözəl seçim! İndi hesab elə ki, müvəqqəti XIX əsrə düşmüsən. Nə internetə çıxışın var, nə də ağıllı telefonun. Yeganə şansın savadlı olmağındır. Çünki sözügedən zamanda az adamın belə bir lüksü var idi. Kitabxanamızdan yararlana bilərsən. Hər cür ensiklopediya varımızdır. Elə isə... başladıq!

Sona xanım suçiləyəni götürüb çiçəklərini sulamağa getdi. Aylin isə bütün uşaq, böyük ensiklopediyalarını töküb, onların "cəngəlliklərində" irəliləməyə başladı. Əvvəl yavaş-yavaş, çaş-baş, sonra daha rahat, diqqətlə, sərbəst.

Nəhayət, gözlənilən gün gəlib çatdı. Sona xanım səhərdən dedi: – Bu gün heç bir iş görməyəcək, axşama özümüzü yormayacağıq. Dincələcək, hazırlaşacağıq. Sən də ən yaxşı paltarını geyin. Saçını da bur. Mən də gedim güzgü bacı ilə məsləhətləşim...

Axşam nənə-bala taksiyə oturub sahildəki şıq bir restorana getdilər. Hər ikisi çox gözəl görünürdü. Sona xanım ekstrovaqant, Aylin cazibədar, məkan pafoslu idi. Sona xanım heç menyüyə baxmadı da. Bu axşamın dadını və zövqünü əvvəldən dediyi kimi Aylinə həvalə etdi. Nənəni razı salmaq asan məsələ olmasa da, Aylin missiyasının öhdəsindən yüksək səviyyədə gəldi. Ciddi və bu işdən anlayan bir gənc qız manerasıyla (məhz manerasıyla, ədasıyla yox!) sifarişləri etdi. Cavan osminoq dilimləri (quzu ətindən antrikota alternativ), içi dəniz məhsulları ilə doldurulmuş kartof, kalmar salatı və əlbəttə ki, ənənəvi suşi. İçki olaraq da,özünə xərcəng kokteyli, nənəsinə Kuba mətbəxinə aid təzə nanə yarpaqları ilə servis edilmiş alkoqolsuz buzlu mojito istədi. Sona xanım xərçəngin adından belə qorxurdu... Sifarişləri gözləyərkən nənə: – İndi neçə günlük çalışmalarının hesabatını ver, bu qoca nənəni maarifləndir. – Aha, nənə, demək, restoran sahibinə restorator deyirlər. Müasir restoranların "prototipi" orta əsrlərin tavernası, qədim slavyanların kabakı, fransızların bistrosu, rusların traktiri hesab oluna bilər... Aylin danışır, nənə dinləyir, qaşlarını qaldlrıb təəccüblənirdi. Birdən qızın üzünü ovuclarına alıb dedi: – Belə bir məzəli türk mahnısı var

idi: “Mən sadəcə, qışda qarpızı, yayda portağalı özlərdim. Şimdi sən çıkdın başıma”. Sən gedəndən sonra mən neyləyəcəyəm? Yerin gözümə görünəcək. Bağın bütün ləzzətini aparacaqsan.

Gec də olsa, bağa qayıtmağa tələsmirdilər. Hava gözəl, ətraf qələbəlik idi. Bir çoxları üçün gün indi başlayırdı. Məxluq sahilə axışırdı. Hava almaq, yemək, musiqi dinləmək, vaxtı xoş keçirmək, hətta gecənin bu aləmi dənizə girmək üçün. Elə bayaq Aylingili restoranda oturanda dənizdən səslər gəlirdi, camaat çimirdi. Dəniz darıxmırdı. Bu gecə ona yatmaq yox idi. O qədər ki, qayıdanbaş tıxaca da düşdülər. Bağlara gedən yol dar olduğundan dənizdən qayıdanlar və əks istiqamə gedənlər bir-birinə yol verə bilmirdilər...

Elektriçka yolunda nənə maşını saxlatdı: –Burdan o yana piyada gedəcəyik. Soyumuş qumun üstü ilə. Cırcıramaların səsi altında.

Qaranlıq deyil?

Ay var da...

Nənə səmaya baxıb gülümsündü: – Bir az kefli kimi görünsə də. Ay görmüşün ulduza minnəti yoxdur.

Ayaqqabılarını çıxarıb əllərinə götürdülər. Bir-birinə sarılıb sağa-sola yellənə-yellənə, deyə-gülə öz bağlarına doğru yürüdülər. Bağların üzərinə ılıq bir gecə çökürdü. Və bu gecənin öz hüsnü var idi. Sabah başqa gün olacaqdı. Sabah Aylin uzaqda olacaqdı. Amma nə bu günü, nə bu yayı unudacaqdı. Yerinə uzananda Aylin düşündü: – Nənəsi olmaq bir xoşbəxtlikdir. Bir sərvətdir, nemətdir, gələcəyə yadigardır. Bunu mən deyirəm. Ömrünə nənəli olmaq qisməti düşən bir qız.

## Nazile Gültac

# Yoktur

Günün batan vadesidir.
Bu günün hiç bir şeyi yoktur,
Hiç bir şeyim yoktur bu gün.
Ne gamım var, ne sevincim.
Ne de sevmeye hevesim.
Her şey yoktan oluşmuş–
Hasret, muhabbet.
Kalbim yoktan yaralanmış,
Gözümde bir damla çiy.
Hiç bir şeyim yoktur bu gün,
Hiç bir şeyi yoktur bu günün.
Ancak bu hiçlerde çok şey,
çok şey var.

## Mətanət Hüseynxanqızı

# Nəğmələşər Bu Dünya

(Sevinc olar həmən günü bir röya,
Ürəyində alovlansa bir ziya,
Şirin-şirin qəlbə dolsa bir xülya,
Nəğmələşər, aləm olan bu dünya.

Gəlib keçsə qabağından bir göyçək,
Əllərində tumarlanar bir çiçək,
Niyyət olub səpələnər hər ləçək,
Nəğmələşər, aləm olar bu dünya.

Bir görüşdə pərvaz olsa diləklər,
Qovuşanda bir olarsa ürəklər,
Baxışanda sevgi açsa bəbəklər,
Nəğmələşər, aləm olar bu dünya.

Bəzəsələr qaynatalar toy zalı,
Sevinc versə cüt cavanın hər halı,
Həzin-həzin çılanarsa vağzalı,
Nəğmələşər, aləm olar bu dünya.

Saxlamağa imkan olsa zamanı,
Qaytarmağa çalışarsan bu anı,
Xoş sözünlə əzizləsən bir canı,
Nəğmələşər, aləm olar bu dünya.

Bir ananın sakit yatsa körpəsi,
Evə dolsa gül ətirli nəfəsi,
Kəsilməsə qığıltının xoş səsi,
Nəğmələşər, aləm olar bu dünya.

Külək yaysa bir gəlinin laylasın,
Bir babanın şirin "ninay" çalmasın.
Oxşayarsa bir nənə də balasın,
Nəğmələşər, aləm olar bu dünya.

Bayram günü yaddan çıxmaz axşamlar,
Aşıb daşsa süfrələrdə bol camlar,
Xonçalarda əlvan yansa o şamlar,
Nəğmələşər, aləm olar bu dünya.

İl axırda biri düşər tez yada,
Açar qoyub niyyət tutsan o ada,
Ağrın-uğrun səpələnsə o oda,
Nəğmələşər, aləm olar bu dünya.

Göz sevinsə görüb bahar çağını,
Tumurcuqlu, əlvan güllü bağını,
Yaşıl örpək, lalə donlu dağını,
Nəğmələşər, aləm olar bu dünya.

Qızlar durub səhər tezdən gəlsələr,
O bağdakı bol məhsuldan dərsələr,
Ağ geyinsə o dərələr, oylaqlar,
Nəğmələşər, aləm olar bu dünya.

Naz eyləyib göydən yerə baxsa ay,
Ağ camalın şəffar suda yusa çay,
Bir gözəli oxşatsalar ona tay,
Nəğmələşər, aləm olar bu dünya.

Yavaş-yavaş qızararsa dan üzü,
Gülümsəsə şəfəqlərdə gün özü,
Qamaşdırıb göz vurdusa hər gözü,
Nəğmələşər, aləm olar bu dünya.

Sahillərə hey çırpınar ləpələr,
Dalğaları muncuq-muncuq səpələr,
Qayaları qucuqlayıb öpələr,
Nəğmələşər, aləm olar bu dünya.

Köç eyləyib, çadır qursan yaylaqda,
Əl üşüsə səhər tezdən bulaqda,
İşıq salsa axşam zərif çıraqda,
Nəğmələr, aləm olar bu dünya.

Səhər tezdən çoban çalsa tütəyi,
Meh tərpətsə təzə heşli çiçəki,
Doldurarsa quşəppəyi ətəyi,
Nəğmələşər, aləm olar bu dünya.

Dolu qazan xoş iy yaysa ocaqda,
O süfrədə bardaş qursa qonaq da,
Təbəssümlər pərvazlansa dodaqda,
Nəğmələşər, aləm olar bu dünya.

Beyhan Gözükara

# Anılarım

Her sabah kapımı biraz aralayıp
Girer odama benim anılarım
Bir anda hepsini yaşayıp.
Terk ederler beni bakakalırım arkalarından umutsuzca.

Derler ki hadi bizi yeniden canlandır.
O aşk merdiveninden yavaş, yavaş tırmandır.
Biz seni mutluluğun zirvesine çıkartır.
Tekrar bırakırız seni yere derler usulca.

Ah benim güzel anılarım, anılarım, anılarım.
Bükülse belim ağarsa saçlarım.
Istırapla geçse de bundan sonraki yıllarım.
Ben yinede sizleri hatırlarım, hatırlarım, hatırlarım.

## Yasemin Kapusuz

# Yağmurdan Önce

Sanatkârı yoksa elbette ölüdür evler ve balkon.
O ince veremli âşıkların kristal sarayları tuz ve buz.
Kına kokulu çay, nevruzum kurban, soyum Meryem.
Annesiz şiirler de hep bir yaklaşık, öksüz nisan.

Bulut yüklü gökyüzü, sus hakkı oruçlu dudaklarım.
Serveti kuru bir ekmek efendi minnetin ve zeytin.
Ayrılıktan şikâyet, çamurlu hilkat, kandan kelebek.
Salyangoz avcısı, çocuk sevinci belki de menziller.

Sandıklardan trenler gelir gider, yâre hevesli mendil.
Başım migren, bir karış yukarısı panayır düşüncemin.
Acil muayene dolu, bir sonraki çağ ile büyük randevu.
Yolu küheylan kükrüyor hücresinden, çiğdemler hekim

Gece vakti gökkuşağı yağıyor sözlerime inceden.
Baykuş tüyü gözlerim, mucizeler keman resitali.
Papağanlar maskeli balo, sahurda dut yemiş elekçi.
Savaşlara alkış, barışa ceza, ceylanlara veda üstü veda.
Kıt kanaat cüzdanlarla boykot, sanal dünyalara.

Tamirat işlerinde fuzuliyim, kalplerdeki hatlar kesik.
Son şafakta pembe düş görüyor kış, manolya ve hüzün.
Badem neşesinde uçak bileti, kiliseden Aksa' ya kilit.
Uyansın yüzün yıldızlardan, konsun rüyasına bülbülün.

Gelin teli bir tutam çiçek ve kahve, Allah'ın emriyle,
Şemsiye mazur, aşka tutulmuş bu şiir, yağmurdan önce.

Mina Rəşid

## Güneş Yavrum

Şimdiden öykün hazır
çöp kutusuna atılan yavrucak
annen unutulmaz anılar bıraktı sana
soğuk bir kış gününde
yeniden doğdun sen
güçlü olmalısın
tıpkı ismin gibi...
Güneş yavrum, korkma
çünkü senin Tanrın var
zaten kim yalnız ki, aslında
üzülme, büyüyünce görüceksin
yalnız annen değil
adamların çoğu vefasız
ama sen sakın onlara benzeme,
Güneş yavrum...

Şəhid xanımının dilindən...

Hərdən səsin gəlir qulağıma,
sevinirəm.
ah, o təbəssümün...
gülümsünürəm.
əllərim havalanır,
sənə doğru uçuram...
adın gəlincə qızımızın dodağı büzülür,
oğlumuzun qaşları çatılır...
uşaqların səsinə aşağı enirəm
sənə uzanan əllərimlə
iki balamızı qucaqlayıram.
sənin qoxun gəir,
səsin gəlir,
sən həmişə bizimləsən,
qəlbimdəsən, birdənəm...

## İnci Okumuş

# Kalem Yarası

Kendi kendimle konuşurken susuyorum
Sabrın feryadıyla açıyorum şiirli orucumu
Yapayalnız yürüyorum kalabalıklarda
Aşkla tutuyorum hayallerimin burcunu
İçi kanayan sevinçli zamanlardan geliyorum
Alın teri döken bulutların emeğinden
Ateşe atılan su kadar korkusuz
Ayak direyen sözlerin kudretinden
Akan kelimeler kadar susuz
Kelimeler sürüyorum kalem yarasına
Anlasana

Ben yalnızken tek başına geliyor
Dünyaya katlanamadığım zamanlar
Her şeyden uzaklaşıp yürüyorum
Sesi kurşun gibi değen türkülerin arasına
Hüzünlerle kavileştiğini biliyorum şairlerin
Yürürken kavganın, şiirin ve dertlerin ortasına
Başkalarının acılarıyla ölürken bir yerlerde
Gömüldüklerini biliyorum bir de
Hudutsuz ve sahipsiz o
Kalem yarasına

Alın damarını çatlatan emeklerden geliyorum
Bir sevginin göğsünde yatarken kimsesiz
Gözyaşlarını öpüyorum yanaklarından
Şiirlerin mühürlü kapısından geçiyorum
Baharlar dökülürken avuçlarımdan
Kimseler bilmiyor
Kahkahaların dudaklarında bekleşen acıları
Bir ırmak gibi seviyorum
Kalbime yatak açan sancıları
Elbet gecelere de gelir uyanmak sırası
Daha sormadan anlatıyor derdini o
Kalem yarası

Her akşam bir uçtan bir uca yürüyorum dünyayı
Gün görmüş gecelerin kan çanağı gözlerinde

Bir yalansız ümit arıyorum
Gündüzlerin gazel okuduğu yerde
Bekliyorum mevsimlerin gam yediği ânı
Yarınların can kırığı derdine
Kutsanmış kelimelerle gülüyorum
Omuzlarımda yükü dağların
Heybemde azık gibi taşıyorum zamanı
Biliyorum
Geçmez geçtiğini sandığım ölmek sırası
Ayrılıkların kanadığı yerde duruyor o
Kalem yarası

Dalından kopmamış çiçekler koparıyor insanı
Bir sevda gibi hüzünlerinden
Bindiği dalı kesen zamanlara inat
Bir yastığa baş koyuyor toprakta nebatat
Bire bin veriyor gökyüzü
Mağrur ırmaklarda süzülüyor nazlı yüzü
Deli divane ediyor ellerinin mürekkep kınası
Dile kolaysa da şaire zor söylemek
Durup dinlenmeden kanıyor o
Kalem yarası

Yol kenarında açan çiçekleri unutmadım
Unutmuyorum kurumuş pınarların adını
Bir dikili ağacın olsun kanatmadım kalbini
Kanatmıyorum rüzgârın yarasını
Başımı göğe yaslayarak şiirler yazıyorum
Bıçak gibi kelimeler dayıyorum kemiklerime
Bir gün bile unutmuyorum nasıl
Bin dereden su getirdiğimi kendime
Biliyorum ellerimden ömrüme
Geldi ölümsüzlüğün geçmek sırası
Bir veba gibi işte
Geçti geçiyor o
Kalem yarası

**Lütviyyə Əsgərzadə**

## Mehmet Ömer Kazancı Şiirinde Kerkük

Kərkük deyincə ilk ağla gələn Füzuli olur, Nəsimi, olur, yəni bizim üçün İraq Füzulidən, Nəsimidən başlayır. “Bizim üçün İraq Füzulidən, Füzuli Kərbəladan başladığı kimi, Kərkük də, Qəzənfər Paşayevdən başlayır” (Y.Qarayev). “Altı il Dəclə-Fərat sahillərində” əsərinin müəllifi, “Azərbaycan kərkükşünaslığının banisi” (T.Hacıyev), professor Qəzənfər Paşayevdən. Kərkük deyincə, ilk ağla gələn bir də çox kiçik yaşlarımdan televiziyadan dinlədiyim Kərkükün pasportu sayılan hoyratları gəlir:

“Evlərinin dalı qaya,
Qayadan baxarlar aya.
Mənim yarım ağca maya
Ninnə yarım ninnə,
Əsmər yarım ninnə ...

Evlərinin dalı yonca
Yonca qalxıb dam boyunca,
Mənim yarım beli incə...
Ninnə yarım, ninnə,
Əsmər yarım, ninnə...”

Mahnının sözləri asanlıqla yaddaşımıza həkk olunduğundan dilimizdən düşməzdi. Anam hey zümzümə edərdi, “Evlərinin önü yonca...” (bəzən “önü” yerinə “dalı”-evin arxası kimi də tələffüz edilərdi: “Evlərinin dalı yonca). Hətta xatırladığım qədər bu mahnını müğənnilərdən biri tanımadığımız bir gənclə yelləncəkdə oturub oxuyurdu. Gənc də asta-asta yelləncəyi yırğalayırdı. Biz də qapımızın ağzındakı tut ağacından asdığımız yelləncəkdə hey bu mahnını zümzümə edirdik. Böyüdükcə, öyrəndik ki, “Ev¬lərinin önü yonca” mahnısını oxuyan Nərminə Məmmədovadır. Nərminə xanımın duet ortağının kimliyin haqqında çox-çox sonralar, Əli Şamilin mənə göndərdiyi video və məlumatdan öyrəndim. Nərminə xanımınla duet oxuyan gənc 1959–1970-ci illərdə Azərbaycanda yaşayan, Azərbay¬can Radiosunun ərəb dilində verilişlərinin aparıcısı olan Sinan Səid imiş. Sinan Səid Bakıda aspiranturada oxuyub və burada azərbaycanlı xanımla evlənib. Sinan Səid Nərminə Məmmədova ilə birgə həmçinin “Qızıl üzük, yaşıl qaşı” adlı mahnıları oxuyub.

Gəncliyimizdə ən çox oxuduğumuz kitab Qəzənfər Paşayevin “Altı il Dəclə Fərat sahillərində” kitabı idi. Kitab bizə yaxın və bir o qədər də uzaq olan İraqa - Kərkükə açılan yeni bir pəncərə idi. Bu gün xoşbəxtik ki, artıq türkmən qardaş və bacılarımızla elmi və ədəbi əlaqələr qurulub. Dəvət aldığımız elmi simpozyumlarda bir-birimizlə görüşüb söhbət edir, fikir bölüşürük. Şərqdən, Şərqin bitməyən problemlərindən, daha çox Kərkükdən danışırıq. Bu gün Kərkük deyincə yadıma Bağdad universitetinin dosenti, dostlarım Nadia Jassen, folklorşünas alim Nejdet Yaşar Bayatlı, bu yaxınlarda AMEA-nın Ədəbiyyat İnstitutunun “Fəxri doktoru” diplomu ilə təltif olunan şair, alim, ictimai xadim Şəmsəddin Kuzəçi və müasir Türkman ədəbiyyatının nümayəndələrindən Əbdüllətif Bəndəroğlu, Cəlil Qazançıoğlu, Husam Həsrət, Əsəd Ərbil, Faruk Faiq Köprülü, Əli Çolaqoğlu, şairə Ayhan Həcəroğlu və bu gün Kərkükə həsr olunmuş şeirləri üzərində düşüncələrimi paylaşmaq istədiyim professor Məhmət Ömər Kazancı gəlir.

Məhmət Ömər Kazancı Türk dünyasında tanınan elm adamı olmaqla yanaşı, həm də sevilən bir şairdir. O, Türkmən Qardaşlıq Mərkəzinin (TQM) idarə heyətinin sədri, İraq türklərinin ən geniş yayılmış jurnalı olan,1961-ci ildən nəşr olunan “Kardeşlik” jurnalının baş redaktoru vəzifələrində çalışıb (2005 - 2013). Sonralar bu ocağın fəxri prezidenti seçilib. İraq Universitetləri Professorları Dərnəyi və Türkmən Ədəbiyyatı, İraq Ədəbiyyatı və Avrasiya Ədəbi Dərnəklərinin idarə heyətinin üzvüdür.

Onun dünyanın tanınmış jurnallarında ingilis, ərəb və türk dillərində 45-dən çox elmi araşdırması dərc etdilmiş, 22 ali təhsil (magistr və doktorantura) tələbəsinə elmi rəhbərlik etmişdir. 4 patentin müəllifidir. Onun ərəb dilində yazdığı 2 elmi əsəri: “Mikrobiologiyanın Sənayeyə Tətbiqi” və “Molekulyar Biologiya” Bağdad Universiteti tərəfindən dərslik kimi nəşr edilmişdir. Bununla yanaşı, M.Ö.Kazancının İraqda, Türkiyədə hekayə və araşdırma yazıları yayınlanmış, “Sənə doğru” (Bağdat, 1979). “Şarkıca konuşmak” (Bağdat, 1984),

“Cam ardından bir öpüş” (Bağdat,1987), “İnci üstünə inci” (Bağdat,1990). “Şafak” (Nusrət Mərdan və İsmət Özcanla birgə) (Kerkük, 1990), “Türkmən öykücülüyü” (Bağdat,1994), “Bir ömür yetmiyor” (Kerkük, 2003), “Ölümə zaman erkən” (İsmət Özcanın yaşamı və şeirləri) (Erbil, 2005), “Nəsrəddin hoca Kərkükdə” (Bağdat,2007),”Türkmən öykücülüğü” (araştırma – Bağdat, 2007), “Atəş çəmbəri” (Bakı, 2008), “Qığılcım” (İstanbul,2008), “Türkmən ədəbiyyatında ilk hekayə: Mübarə eşqi” (İstanbul, 2009) “Kerkükdə gül zamanı” Ərəb dilində hekayə antologiyası. (Nusrət Mərdan ilə birgə). (Bağdat, 2009), “Hüzün qağayıları” (Nusrət Mərdan ilə məktupbaşmalar), (Kərkük, 2010), “Gündem işğal” (Kerkük,2010), “Yeni İrak qəzeti. Tədqiqat. (Kərkük, 2011), “Qadın qəlbi: yüz il öncə yazılan bir roman: Hayrəttin Farukî: İncələmə və sözlük, (Türkiyə, 2013) adlı şeir, hekayə və araşdırma kitabları nəşr olunmuşdur. Məhmət Ömər Kazancı Kərkükdə doğulub (1952). Kərkük onun ən böyük sevdasıdır. O Kərkük ki, İraqın 4 böyük şəhərindən biridir. Başından “qəzavü-qədər” əskik olmur, hələ də problemləri həll olunmayıb. M.Ö.Kazancının poeziyasında Kərikük bütün gözəllikləri, sosial dərdləri, siyasi problemləri, xüsusən də sevgisi ilə inikas edir.

“Sen benim gözlerimde bin yıllık bir rüyasın
Gözlerimden Kerkük’üm seni çalan mı olur
Adım adına bağlı kaderim kaderine
Uğrunda baş veririm desem yalan mı olur” (Kerküke aşkname).

Bildiyimiz kimi XX əsrin sonunda Orta Şərqdə başlanan savaşlar XXI əsrdə hələ də davam edir. İllərdir döyüş meydanına çevrilən Yaxın Şərqdə məzhəb savaşı XXI əsrdə də səngimək bilmədi, əksinə coğrafi sərhədləri genişləndirmək məqsədi ilə qarşıdurmalar günü-gündən daha da qızışdırıldı. Sonsuz görünən müharibələrə səbəb ola biləcək müqavimətin ilk əlamətləri özünü göstərməyə başladı. Yaxın Şərqdə baş verənlərin memarı olan Qərb, müsəlman dünyasının ideoloji müstəvidə çalxalandırdı və masının hansı istiqamətdə davam edəcəyini seyr etdi. Çünki Qərb artıq edəcəyini etmiş, Orta Şərqi müharibə ocağına çevirmişdi. Bu, Orta Şərqin xəritəsinin yenidən cızılması üçün zəmin hazırlıqları idi. 28 sentyabr 2013-cü ildə “New York Times” (ABŞ) qəzetindəki xəbərlərdə yer alan xəritədə, Orta Şərqin alacağı forma göstərilmiş, Robin Raytın imzaladığı təhlildə Orta Şərqdə 5 dövlətin necə parçalanaraq 14-ə qədər artacağını göstərmişdi. “Yaxın Şərqin xəritəsi yavaş-yavaş yenidən çəkilə bilər”, - deyilən təhlildə Səudiyyə Ərəbistanı, Yəmən, Suriya, İraq və Liviya kimi ölkələrin bir neçə yerə bölündüyü görülür. “New York Times”ın yeni Yaxın Şərq proqnozuna görə, 5 ölkədən 14 ölkə yaradılacaq, yəni İraqın Şərqində kürd bölgəsi, ortada sünni dövləti, paytaxt Bağdadın cənubunda da bir şiə dövləti qurulacaq. İŞİD terror təşkilatının İraq və Suriyadakı stratejik önəm daşıyan əraziləri ələ keçirməsi və s. “New York Times” qəzetinin yayınladığı Yaxın Şərq ssenarilərini ehtiva edən xəritədə, Robin Rayt Yaxın Şərqlə bağlı təhlilində Liviya, Suriya, İraq, Səudiyyə Ərəbistanı və Yəməndəki etnik və məzhəb gərginliyinə toxunmuş və bölgəni iqtisadi və siyasi böhranların gözlədiyini bəyan etmişdir. Bu xəritənin yaradılması illərdir üçün Orta Şərqdə nələr edildiyi məlumdur. Bu planlamadan İraq türkmanlarının yaşadığı Kərkük də öz nəsibini aldı. Bir neçə il öncə Böyük Britaniyanın “Time” qəzeti yazırdı ki, “Kərkük partlamağa hazır bir bombadır.” “Time” qəzeti: “Kərkük partlamağa hazır bir bombadır.” Türkmən Najim Ömərsə Kərkükü “qaz sızan bir təbii qaz borusu”na bənzədir. Amma bu bombanın fitilini qoyanlar az öncə bəhs etdiyimiz kimi, Qərbin enerji mənbələrini ələ keçirmək istəyi idi. süni şəkildə yaradılan məhzəb qarşıdırması idi. Bütün bunlar, Kərkük yaxın keçmişi və bu günü ilə şairin şeirlərində geniş şəkildə öz əksini tapır. Kərkük qatarını xatırlayan şairin düşüncələri həm hüznlüdür, həm düşündürücü.

“Bir tren vardı
Büklüm büklüm
Salıverirdi dumanını
Evimizin üstüne
Püf.. püf.. püf diye okşardı
vagonlarını
Ardınca çekerken
Bir istasyondan
diğerine…

Bir tren vardı
Kerkük’ün göğsüne
Başını dayardı
Yorulduğu zaman” (Kərkük qatarının ardından).

Şairin yaddaşında həzin xatirələrlə həkk olunan qatar sıradan bir qatar deyildi. Kərkük qatarı idi. "Qatar Kərkükə girərkən babasız çocuklara əl sallar", "qıtlıq günlərində un daşıyardı." Savaş günlərində qatarların da missiyası dəyişir. Artıq Kərkük qatarı cəbhəyə əsgər daşıyır,:

"Bir tren vardı
Kerkük'e girerken
Babasız çocuklara
el sallardı
Un taşırdı
Kıtlık günlerinde
oradan oraya
Savaş günlerinde
Asker taşırdı
cepheye" (Kərkük qatarının ardından).

Bu qatar vaxtı ilə xoşbəxt anlara şahidlik etmişdi. Hər işə yarayan bu qatar Muskonun Fatmasını Kərkük qalasından Ərbil qalasına gəlin aparmışdı:

"Bir tren vardı
Muşko'nun Fatma'sını
Gelin götürdü
Kankalasında
Erbil'in kalesine
Kerkük'ün kalesinden."

Artıq qatar gəlin aparmır, çocuklara əl sallamır, savaşa əsgər daşıyır. Çünki il 2010 deyil, 2014-cü ildir. "Havadis" var. Şair əlində "Havadis" qəzeti tutan birini görüncə haldan-hala düşür. "Sen kimsin amca" xitabıyla başlayar şeirini:

"Sen kimsin amca
Hangi gezegenden geldin
Bu gazete Havadis gazetesi
Eline nasıl geçti nereden
Biz 2014'teyiz
1900'ler geride, çok geride kaldı
Nasıl manşet edildi Havadis'e bu haberler:
-Yine can kaybı var
-Yine patlamalar
-Yine döndü kan gölüne
Yetim Tuz, bîkes Kerkük
-Yine vuruldu Telafer
Yüreğinden yaralı" (Havadis).

Məhmət Ömər Kazancının yaradıcılığında Kərkük, Kərkük sevgisi qırmızı xətlə keçir. Şair üçün Kərkük anadır, vətəndir, eşqdir, sözdür, şeirdir. Hətta varlığının səbəbi "Əvvəl Allah, sonra Kərkükdür..." Onun "Əvvəl Allah sonra sən" kitabında toplanan şeirləri Kərkük sevgisini notları üzərində yazılıb:

"Kadir Allah
En gökçe bir hamurla
Yoğurarak yarattı
Senin koynuna attı
Perçinleştim seninle
Ruhum ruhuna çattı
Annem oldun Kerkük'üm.

Barındırdın besledin
Kılca kusur etmeden
En kıtlı günlerimde
Sayem sermayem oldun
Evvel Allah sonra sen."

Onun şairliyi də inandığı, ona "sezgi", "seziş", "güc" verən Allahın və "içindən səsi heç əskik olmayan", çox sevdiyi Kərkükün sayəsindədir:

"Sizlerin sayenizde
Şairim ben, şadım ben
O sezgi, seziş verdi
Güzellikler estiren
Sen de güç
Sen de esin
Kesilmedi içimden
Eksik olmadı sesin" (Əvvəl Allah, sonra sən).

Birinin ondan Siz Kərkükli müsünüz? - soruşmasının üzərinə şair, bir şeir yazır. Kərkükün və kərküklünün ədəbi portretini çəkir:

"Siz Kerküklü müsünüz?
Konuşmanızdan tanıdım ne kadar nazik
Gözlerinizden tanıdım."
"Hep birileri vurdu sizi arkadan
Onlar ne yazık ki bizdik
Siz Kerküklü müsünüz?

Təsadüfən tanışdığı kərküklüyə xanımını anladır. İllər öncə İstanbula gəlin gəlmiş, ağır həyat şərtləri, ərinin mədəndə çalışması, ya "Parası olmaması" ya da sərhədlər açıq olmadığından, savaşın başlaması səbəbindən Kərkükə apara bilməmiş. Rastlaşdığı kərküklünü evinə dəvət edir, "Bari siz gelin, bir az oksigen alsın."

Benim de eşim Kerküklü âşığım size
Ruhunuzun imzasını taşıyan türküleriniz
İçten titretir beni nerede duysam
Uzak değil İstanbul'un ortasındadır evimiz
Konuk edelim sizi sevinir eşim
Gözleri sizinki gibi hazin

Kerkük'e götürmedim hiç madenciydim
Ya zamanım olmadı ya param
Ya sınırlar kapalı dediler savaş var
Bari siz gelin
Bir az oksijen alsın
Kerkük'ü solusun gözlerinizden bir az
Son günlerinde" (Siz Kerküklü müsünüz).

Qəhrəmanlarının tanışlığını anladan şair, Türkün Türkdən başqa dostu yoxdur, - deyiminə toxunur. Keçmişə ekskurs edir. Onların babaları gənc ikən, savaşda - Çanaqqalada tanış olmuş, çiyin-çiyinə savaşmışlar:

Çanakkale'de Omuz omza savaşmıştır babasıyla babam
Çiçekleri burunlarında iki genç
Ne çok istemişlerse de Şehit olmamışlar
Oradan işte hikâyemiz başlar."

Kərküklünün sevgisini, gözlərini, ədəb-ərkanını anladır, evinə qonaq dəvət edir, həyat yoldaşının onun gəlişinə sevinəcəyini, kərküklüləri çox sevdiyini bildirir:

Kerküklü müsünüz, sizin aşkınız yaman
Sizin aşkınız ateş
Düştüğü suyu kaynatır fıkır fıkır
Düştüğü yeri yakar
Yüreğim yangın
Soluğum duman
Gelin konuğumuz olun.
İstanbul'un Ortasındadır evimiz uzak değil
Eşim çok sevinir
Yarı sönük bir lambanın altında uzanıyor şimdi
Gözleri tavanda Kerkük'ü düşünüyor yıllardır görmediği
Siz gelin sizi görsün bari Kerküklü değimlisiniz
Sizi çok seviyoruz
Ben ve eşim Dursun ablanız (Siz Kerküklü müsün).

Tarixə ekskursiya edən şair, "Gəlin girin dədənizin qucağına" şeirində çocuqlarla həsbhal edir. Məmləkətin qədərindən danışır, savaşın ilk olmadığına, bu torpaqlarda hər zaman qanın axdığına işarət edir. Bu savaşda verilən qurbanları, insanları, savaşın insanlara gətirdiyi faciələri anladır. Anaların itirdiklərinə, üzüntüsünə, çəkdiklərinə diqqət çəkir. Aman ananız bilməsin durumun kritik olduğunu. Gözünü bir savaşda itirdi, babanızı bir savaşda. Bu yaşda dayana bilməz silah səsinə.

"Bu ilk savaş değildir,
Memleketin yaşadığı
Her zaman kan akmıştır,
Deresine tepesine dağına
Gelin girin kucağına Dedenizin
Bütün delik deşikleri
Sıkı kapatın çocuklar
Alçak konuşun, duymasın
Anneniz bilmesin ki dışarıda
Karışık bir durum var
Babanızı bir savaşta kaybetti,
Gözlerini bir savaşta
Dayanamaz bu yaşta,
Gürültüye
Dayanamaz artık silah sesine.
Çocuklar,
Korkmayın,
Bu ilk savaş değildir
Memleketin yaşadığı
Ne de sonuncu savaş" (Gelin girin dedenizin kucağına).

Savaş İraqın, bütövlükdə Şərqin yaşamını dəyişdi, dağılmış şəhərlər bir-birinə bənzədi, dağılmış şəhərlər xarabaya döndü. Mədəniyyət abidələri yox edildi. Savaş meydanlarında yalnız əsgərlər ölmədi, çocuqların, qadınların həyatı söndü. İnsanlar yurd yerindən didərgin düşdü. Və bütün bu yaşananları müharibənin dəhşətini, müharibə şəraitində yaşayan insanların düşüncə və sarsıntılarını, dağıdılan şəhərlərin, öldürülən çocuqların, anaların harayını Kərküklü şair Məhmət Ömər Kazancı böyük bir ağrı ilə şeirlərində inikas etdirdi.

Dünyaya sülh gərəkdir. İnsanların arzusu sülhdür, əmin-amanlıqdır. Uşaqlıqdan əzbərlədiyimiz və Günümüzlə səslənən bir mahnı var: "Qoy həmişə sülh olsun!" (mahnının musiqisi Arkadi Ostrovskiyə, sözləri Lev Oşaninə məxsusdur). Əsasən rus dilində oxunurdu. Mahnıda uşaq insanları sülhə çağırır. Mən də yazımı dünyamıza sülh arzusu ilə yazımı bitirirəm:

"Qoy həmişə günəş olsun,
Qoy həmişə səma olsun,
Qoy həmişə anam olsun,
Mən də olum həmişə!!!"

Həvva Nazim

## Gördüm

Addımlar bəyazdan, siyahdan keçdi,
Susdu qalan rənglər, lal oldu, gördüm.
Günəş az göründü, nagahdan keçdi,
Dəymədi arzular kal oldu, gördüm.

İllər sürüklədi yaş üstünə yaş,
Nə zaman dillənsəm, dilimdəydi kaş,
Düşdü qara saça dən yavaş-yavaş,
Ağarıb həsrətdən çal oldu, gördüm.

Həvva, ümidlərin boynunu burdu,
Qərib qaranquştək çırpınıb durdu,
Ürəyin bir ömür xəyalla vurdu,
Ayrılıq köksünə xal oldu, gördüm.

## Samirə Sahib

# Yaz Gətirdin

Gəlişinlə qış ömrümə,
Xoş ətirli yaz gətirdin,
Ürəyimdən qəm-kədəri,
Bir dəfəlik sən itirdin.

Məhəbbətdən yandı ürək,
Hər kəlməndən oldum kövrək,
Çiçəkləri düzüb tək-tək,
Saçlarımda gül bitirdin.

Samirə, de bilsin hər kəs,
Ruh sevgidən alır həvəs,
Eşqə verib yeni nəfəs,
Yarı kama sən yetirdin.

Təranə Arifqızı

# Nə Yazım

"Elə bil bu aralar yazmırsan axı. Saytda gözlərim hey imzanı axtarır".

Gülümsünürəm: - Nə yazım? O anda da Sabirin məşhur şeirinin misralarını xatırlayıram:

Şairəm, çünki vəzifəm budur, əşar yazım,
Gördüyüm nikü bədi eyləyim izhar, yazım.

Düşünürəm ki, mütləq nəsə yazmaq lazımdır. Əgər oxucu səni oxumaq istəyirsə, yazmamağa haqqın yoxdu. Lap işin işinə qarışsa da, xəstəlik əhədini kəssə də, yazmağa imkan verməsələr də, yazmalısan. Gündüz gün işığı azlıq eləsə, gecə ay işığında, ulduz işartısında, lap elə telefon işığında yazmalısan. Səni düşündürən, səndən keçən, sənin işinə qarışan, yolunu kəsən hər şeydən yaza bilərsən. Çox zaman qəbul etməsələr belə, yazmaq yazanın, jurnalistin borcudur.

Kompüterin arxasına keçirəm. Gözəl bir başlıq yazıb dayanıram. Məsələn: "Dəmir yumruğun Polad həlqəsi"... Elə bunun altından ikihissəli bir roman yazmaq olar. İkinci hissənin də adı "Generalın övladları" olar. O övladlar ki, onu qanını yerdə qoymadılar. Başlayıram yazmağa:

"Hələ böyük zəfərin başlandığı ilk günə yetmiş yeddi gün qalırdı. İyul ayının yandırıcı istisində General, cəzalı əsgərini meydançada on dövrə qaçırtmaqla bilmədən onu sabahın ağır döyüşünə hazırlayırdı. Qarşıdakı dörd gündə isə həyatının ən qürurverici, yaddaqalan və yaddaşlarda qalan günlərini yaşayacağını hələ bilmirdi. Növbətçi əsgərin addım səslərindən başqa bütün kazarmada səssizlik hökm sürürdü. Əsgər son dövrəni vurub dayandı. Generala hərbi təzim edib, getmək istədi. Generalın amiranə səsi eşidildi:

- Əsgər, dayan!

Dayandı və sərrast addımla geri çevrilib onun gözlərinə baxdı. Generalın gülümsər çöhrəsi, zəhmli qara gözləri ilə həmahəng idi. Sanki xeyirxahlıq mələyi həqiqət pərdəsinə bürünüb onun simasından boylanırdı.

- Elə bil bayaq futbola baxmaq istəyirdin. Gəl gedək mənim otağıma, bir yerdə baxaq. İtalyanlar ingilislərlə oynayır deyəsən, hə?

Əsgər onun bu sözləri rəsmiyyəti aradan qaldırmaq üçün dediyini bilsə də, cavab verməyə çəkindi.

- Çəkinmə, gəl görüm... - General, ata qayğısı ilə qolunu əsgərin boynuna salıb, kazarmanın içərilərinə doğru apardı...

Generalın bu hərəkəti rusların "slujba slujboy, a drujba drujboy" məsəlini xatırlatsa da, onun özünəməxsus xarakteri heç bir şeylə müqayisə edilməzdi..."

Fikrimdə Generalın bütün həyatını canlandırıram. Amma hardasa lentlər qırılır. Qırılsa da, bu, bir insan həyatının bütövlüyüdü, müqəddəsliyidi, əbədiliyidi. Ağır döyüşlər, düşməni yerinə oturtmaq əzmi, Generalın polad iradəsi relsdə gedən qatar kimi beynimdə dolanır. Özümü azğın düşmənlə savaşda hiss edirəm. Topların, minamiyotlarin, avtomatların qulaqbatırıcı səsləri içimdə dərin bir sükut yaradır. Düşmənin əsas hədəflərini nişan alan PUAlar göydə qartal kimi süzərək düz obyektin mərkəzinə sancılır. İçimdəki sükutun içində bir insan addımlayır. O, hər yerdə görünür. Mərkəzdən tapşırıq alır. Komandir kimi zabit və əsgərlərə döyüş tapşırığı verir. Öndə müharibənin içində ildırım kmi irəli şığıyır. Əsgərlərini qələbəyə ruhlandırır. Yaralı əsgəri döyüş meydanından çıxarır, yarasını sarıyır. Gün batmağa doğru getsə də, arabir güllə səsi eşidilir. Quru torpağın, daş kimi daşın üstündə əsgər paylarını yeyən döyüşçülərin arasında dolanır. Onların yanında oturur. Evlərindən, ailələrindən danışır. Onlarla kədərlənir, onlarla sevinir. Bütün əsgərlər onu izləyir, sözünə qulaq kəsilir. Ona müqəddəs insan kimi rəğbətlə, məhəbbətlə baxırlar..."

Deyəsən, yazmağa köklənirəm. Bu an adımın çağrıldığını eşidirəm:

- Siz verilişi montaj etdinizmi?

Fikirli nəzərlərlə baş redaktorun üzünə baxıram. Ağlımla dilim eyni sözü demir:

- Etmişəm... Bəli, montaj etmişəm, hazırdı.

Qapı örtülür. Gözlərimi yumub gedənləri geri qaytarmağa çalışıram. Beynimin yaddaş tərəfini qurdalayıram. Son vaxtlar yaman unutqan olmuşam. “Gedənlər geri qayıtmaz” ifadəsini qəbul etmirəm. Onlar nə zamansa qayıdır. Bir az geci-tezi var. Kiminsə üz cizgilərində, kiminsə səsində, kiminsə xarakterində qayıdır. Yazı da belədir. Gəlməyini deməz. Birdən gələr. Gözlədiyin, amma nə zaman təşrif buyuracağını bilmədiyin qəfil qonaq kimi. Bir də görürsən qara bir qələmin ucundan gözlərinin içinə baxır. “Məni tanıyırsanmı?” - sualı ilə. Mən gülümsünürəm. Çünki hərəkətləri tanışdı. Gözlərimin önündə, əlimdə-ovcumda böyümüş birini əlbəttə tanıyıram. Və canı-könüldən onunla söhbətə başlayıram. Təzə tanıyanda nə qədər təcrübəsiz idisə, indi özünə güvənlə, əzmlə qarşıma çıxıb, mən buyam - deyirdi. Və onunla söhbətimiz cox səmimi olur. Tərəddüdsüz ona qulaq asıram. Məni öz dünyasına qonaq aparır.. Mən məndən çıxıram...

Əgər zəncirin bir həlqəsi qırılarsa, onu əvvəlki halına qaytarmaq çox çətindi. Amma qırılan həlqə zənciri çəkib qırmaq istəyənin başına dəyir. Özü də böyük zərbə ilə. Hələ o həlqə poladdan olarsa, ondan həqiqətən qorxulur. Çünki polad sınar, amma əyilməz.

“Onlar Generalın olduğu yerin koordinatlarını haradan bilmişdilər? Niyə General özünü qorumağı unutmuşdu, ya da ki, onu qorumamışdılar? Sonra öz dediyimi özüm təkzib eləyirəm: - Bəli, General idi, şair, rəssam, bəstəkar deyildi. Əsasən böyük savaşlarda uzaqgörən başçı xalqa lazımlı, dəyərli insanları - sənətkarları mühafizə edir, onların döyüşə getməsinə izn vermirdi. Amma özü öndə gedirdi. Biz Şah İsmayıl dövrünü yaşayan, onu haqq, nahaq tərəfi ilə qəbul edən müsəlmanlarıq. Tarix çox qəliz məsələdi. Burdan bir haşiyə çıxım: oxucum məni başa düşməkdə çətinlik çəkər deyə bir fikrə aydınlıq gətirmək istəyirəm. Yazdıqlarım şəxsi fikrimdi. Çaldıran döyüşündə Şah İsmayıl məğlub oldu və ondan sonra heç bir döyüşdə iştirak etmədi. Yəni Səfəvilər dövləti süquta uğradı. Əslində, o döyüşdə biz bizi məğlub etmişdik. Bəylər paşalara məğlub olmuşdu. Bu yerdə məşhur bir kəlamı xatırlamamaq mümkün deyil - “Türkün türkdən başqa dostu yoxdu”. Amma vaxtılə türkün türkdən güclü düşməni də olmayıb. Osmanlı İmperiyası Səfəvi İmperiyasına qalib gəlib. Kaş ki, dost olsaydılar...

Şah İsmayılla bağlı oxuduğum əsərlər çox olub. Həmişə də dövlət başçısı kimi, həm də gözəl şair kimi onunla qürur duymuşam. Ağqoyunlu, qaraqoyunlu, göytürk soz birləşmələrini fikrimdə qəbul etməmişəm. Bu nədi, bir milləti iki yerə, on yerə, yüz yerə bölmək üçün bu adları uydurublar. Gərək varmıydı yəni? Bu adlardakı rəngləri qarışdırıb dünyanın ən gözəl rəngini almaq, ən güclü dövləti yaratmaq olardı. Necə də sadəlövhəm, deyilmi? Vallah, bu siyasət mənlik deyil. Şair gərək şeiri, aktyor rolu, rəssam rəng deposu, müğənni mahnısı ilə, jurnalist də düzü düz, əyrini əyri yazmaqla məşğul olsun. Yol çəkən yolunu çəksin, ev tikən evini tiksin, ev yıxanın da öz işi var, təbii ki. Nə isə. Siyasətlə qoy siyasətçilər məşğul olsun.

Söz sözü gətirdi, mən də qələmin könlünə dəymədim. Sonunda yazan odur, mən deyiləm. Ürəyim diktə elədi amma. Məmməd Araz vaxtilə belə yazmışdı:

Çox oldu ürəyinin diktəsinə baxmadın,
İlğımlar qova-qova yulğunlar qucaqladın,
Sən ağlından qəlbinə gedən yolu bağladın...

Heç vaxt ağlınızdan qəlbinizə gedən yolu bağlamayın. Yoxsa dünyanın ən gözəl və ən çirkin planetində yaşamağa haqqınız olmaz.

## Əzizə Ağahüseynqızı

# Payızın Yanında Gözləmək Olmur

Bahar çiçəyini boyayıb sarı,
Payızın yanında gözləmək olmur.
Yaşanan ömürü edibdi yarı,
Payızın yanında gözləmək olmur.

Soyuq küləkləri vurub uçurur,
Durna qatarını eldən köçürür,
Qəmin şərbətini meytək içirir,
Payızın yanında gözləmək olmur.

Göydə buludları şimşək atlıdır,
Yerdə yarpaqları yel qanadlıdır,
Sırrı, möcüzəsi yeddi qatlıdır,
Payızın yanında gözləmək olmur.

Ötüb keçirdiyi yaşa boylanır,
Xəyala boylanır, huşa boylanır,
Qarşıda buz donlu qişa boylanir,
Payızın yanında gözləmək olmur .

Əlindən gileyli necə ası var,
Gözləri nəmlidi, üzdə yaşı var,
Onun üzüyünün sarı qaşı var,
Payızın yanında gözləmək olmur.

Hüzünlü, kədərli qərib boylanır,
Sarı yarpağını dərib boylanır,
Ahını torpağa sərib boylanır,
Payızın yanında gözləmək olmur.

O qəmli gəlindi, fağır gəlindi,
Qüssədən sinəsi yağır gəlindi,
Fəsillər içində ağır gəlindi,
Payızın yanında gözləmək olmur,
Payızın yanında gözləmək olmur.